


# “Xocalı Soyqırımı: şahidlərin dilindən” kitabı Qazaxıstanda nəşr olunub

***Xocalı soyqırımının 30-cu ildönümü ərəfəsində, “Xocalı Soyqırımı: şahidlərin dilindən” kitabı qazax dilinə çevrilərək, Almatıda, “JasA” mətbəsində nəfis tərtibatla işıq üzü görüb.***

Milli Məclisin Mədəniyyət Komitəsinin sədri Qənirə Paşayeva və keçmiş deputat, Azərbaycan Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının professoru Həvva Məmmədovanın yazmış olduqları kitabı qazax dilinə Dünya Gənc Türk Yazarlar Birliyinin üzvü, istedadlı yeni nəsil qazax yazıçısı Erkinbek Serikbay çevirib. Qeyd edək ki, Azərbaycan həqiqətlərinə biganə qalmayan E.Serikbay bundan öncə “Qarabağ hekayələri” kitabını da qazaxcaya çevirmişdi.

Kitabın ön sözünün müəllifi Azərbaycanın Qazaxıstandakı fövqəladə və səlahiyyətli səfiri Ağalar Atamoğlanov, redaktoru Milli Məclisin Mədəniyyət Komitəsinin eksperti, Beynəlxalq “Alaş” Ədəbiyyat Mükafatı laureatı Əkbər Qoşalı, məsləhətçisi tanınmış qazax araşdırmaçı – yazarı Nurqali Jusufbaydır.

Kitab Azərbaycanın Qazaxıstandakı səfirliyinin Nur–Sultanda təşkil etdiyi Xocalı faciəsinin anım tədbirində və Milli Məclisin Mədəniyyət Komitəsinin əlaqədar qurumlarla birgə təşkil etdiyi onlayn konfransda təqdim olunub.

Adından da göründüyü kimi, kitab faciə şahidlərinin ifadələri əsasında yazılıb, təsdiqedici fotolarla tərtib edilib. Müəlliflər emosiyalardan daha çox məhz faktlara, sənədli-sübutlu gerçək hadisələrə və yaşayan şahidlərin acı xatirələrinə, ifadələrinə əsaslanıblar.

“Xocalı Soyqırımı: şahidlərin dilindən” kitabı bundan öncə Türkiyədə yayımlanmış, habelə urdu dilinə çevrilmişdi. Qeyd edək ki, kitabın gələcəkdə özbək, rus, ingilis, ərəb dillərində də nəşr edilməsi nəzərdə tutulub.

**Z. HÜSEYNOVA,**
**“Xalq qəzeti”**

Xalq qəzeti .- 2022.- 6 mart.- S.11.